**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ƏHMƏDOV ABBAS HEYDƏR OĞLU**

# KEÇİD DÖVRÜNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TRANSFORMASİYASI

**İxtisas: 7207.01 – Sosial fəlsəfə**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: Fəlsəfə üzrə elmlər doktoru, professor
**Məmməd Hüseyn oğlu Rzayev**

**Rəsmi opponentlər:** Fəlsəfə üzrə elmlər doktoru, professor
**Azər Xoşbəxt oğlu Mustafayev**

Fəlsəfə üzrə elmlər doktoru, professor
**Məhəmməd Alı oğlu Babayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti**

Müdafiə «29____» __03_______ 2016-cı il tarixində saat $16^{00}$-da AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, AZ - 1143, H.Cavid pr. 115, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «______» ___________ 2016-cı ildə göndərilmişdir.

**Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki D. 01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycanın milli-mənəvi dəyərləri yeni bir dövrə keçir. Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda böyük nailiyyətlərə, mütərəqqi dəyişliklərə yol açsa da, bu proseslərin tarixi-mədəni irsə, ənənələrə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir. Milli-mənəvi dəyərləri qorumaq və onları gələcək nəsillərə ötürmək, dəyişən və dəyişməyən dəyərlərlə bağlı məsələlər bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində dursa da, müasir dövrdə onları tədqiq etməyin aktuallığı daha da artır.

Hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının milli-mənəvi dəyərlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini qorumalıdır. Ulu öndər Heydər Əliyev 13 avqust 2001-ci ildə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatında demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir".[1]

SSRİ süqut etdikdən sonra biz uzun illər keçid dövrünü yaşadıq. Bu dövr milli-mənəvi dəyərlərin ümumbəşəri prizmadan qiymətləndirilməsi dövrü hesab edilməlidir. Keçmiş sistemin mənəvi dəyərlərinin, mənəvi və ideoloji prinsiplərinin bir çoxundan yeni cəmiyyətdə imtina olundu. Lakin hansısa dəyərlərdən, prinsiplərdən istifadə etmək mənəvi sferada boşluq yaratmamalıdır. Çünki nə təbiət, nə də cəmiyyət boşluğu sevmir. Bu məsələnin həllinə Heydər Əliyev kamil bir dialektik kimi yanaşırdı. O, bir tərəfdən keçmişdə milli-mənəvi sferanın zəif inkişaf etmiş sahələrinə xüsusi əhəmiyyət verir, digər tərəfdən insanların tərbiyəsinin sağlamlaşdırılması, onların mədəni səviyyəsinin yüksəldilməsində milli-mənəvi dəyərlərdən daha çox, daha səmərəli istifadə olunmasının vacibliyini müntəzəm olaraq vurğulayırdı. Keçmiş SSRİ dövründə "millətçi damğası" altında yasaq edilmiş milli-mənəvi dəyərlərə, adət-ənənələrə qayıdışın zəruriliyini və onlardan faydalanmağın əhəmiyyətini birmənalı qeyd edirdi.

Problemi aktuallaşdıran başlıca amillərdən biri də budur ki, qloballaşma, total əxlaqın və çoxtərəfli inteqrasiyanın diqtələri bir çox hallarda əsrlərin mirasına – milli-mənəvi dəyərlərə qarşı yönəlmişdir. Tarix bizə milli-mənəvi dəyərlərinə sahib çıxmayan və başqa millətləri kor-koranə təqlid edən, milli mənliklərini itirənlərin dünya coğrafiyasından silinib yox

---

[1]Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 35-ci kitab. Bakı: Azərnəşr, 2011, s. 348-354.

olduqlarını göstərmişdir. Bu səbəbdən bir cəmiyyəti daxildən yıxmaq istəyənlər o cəmiyyətin milli-mənəvi dəyərlərini başlıca hədəf olaraq seçirlər. Çünki, bu dəyərlər o milləti meydana gətirən bütün şəxsiyyətlərin, ziyalıların və zümrələrin ortaq varolma qaynaqları, mövcudluq səbəbləridir.

Milli-mənəvi dəyərlər millətin birlik, bərabərlik və ictimai həmrəylik içərisində yaşamasına və milli kimliyi ilə tarix səhnəsində olmasına imkan yaradır. Müasir dövrdə xalqların qərinələr, əsrlər boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərini gələcək nəsillər üçün qoruyaraq, onlar vasitəsilə bütövlükdə cəmiyyətdə pozitiv ruhun inkişafına təsir göstərmək həqiqətən çətindır. Bu çətinliklərin aradan qaldırılması milli-mənəvi dəyərlərin mahiyyətinin açılmasını, bundan ötrü zəruri olan sosial-fəlsəfi təhlilin aparılmasını aktuallaşdırır və əhəmiyyətli edir.

Milli-mənəvi dəyərlərin sosial-fəlsəfi təhlili ona görə əhəmiyyətlidir ki, insanın, dünyanı və özünü dərk etməyə, dəyişdirməyə və sözün əsl mənasında humanistləşdirməyə yönələn fəaliyyətinin aparıcı istiqamətlərindən birini ifadə edir. Ölkə daxilində və beynəlxalq aləmdə gedən əsaslı yeniləşmələrin təsiri altında milli-mənəvi dəyərlərin transformasiyası adlanan çoxtərəfli və mürəkkəb proses baş verməkdədir. Müasir dövrün reallıqları şəxsiyyətdən ənənəvi formalaşmış milli-mənəvi dəyərlər sisteminə yeni tərzdə yanaşmağı tələb edir. Digər tərəfdən müasir dövrdə şəxsiyyətin malik olduğu milli-mənəvi dəyərlər ehtiyatı yeni siyasi, sosial-qneseoloji, etik xarakterli predmet və subyekt dəyərləri ilə zənginləşir.

Keçid dövrü və eyni zamanda qloballaşma Azərbaycanın milli-mənəvi dəyərlərinə, mədəniyyətinə və mənəvi-əxlaqi meyarlarına öz təsirini göstərir. Bununla belə, öz milli-mənəvi, dini dəyərlərinə və mədəniyyətinə sadiq qalaraq başqa dəyərlərə, ayrı-ayrı mədəniyyətlərə, onları inkar etmədən hörmət etmək və anlaşmaq bacarığı tələb olunur.

Mövzunun təhlilində öz həllini gözləyən bir sıra elmi-nəzəri məsələ və problemlər mövcuddur. Birincisi, ümumi ictimai sistemin, şəxsiyyətlərin özünüdərkində, inkişafında milli-mənəvi dəyərlər haqqında nəzəri biliklərin bir-birilə əlaqələrinin konkret mexanizmi necədir, yəni cəmiyyətin dəyişməsi milli-mənəvi dəyərlər prizmasında necə əks olunur? İkincisi, milli-mənəvi dəyərlərin araşdırılması, bütövlükdə onların artmaqda olan rolunun və əhəmiyyətinin tədqiq olunması son dərəcə zəruriyyətə çevrilir. Üçüncüsü, keçid dövründə milli-mənəvi dəyərlərin transformasiyasının necə baş verməsi məsələsidir. Deməli, müasir dövrdə milli-mənəvi dəyərlərə yeni baxışlar meydana gəlir ki, onların təhlil edilib ümumiləşdirilməsi sosial fəlsəfənin ən aktual istiqamətlərindəndir.

Qloballaşma şəraitindən aydın görünür ki, milli-mənəvi dəyərlərın zaman keçdikcə fərqli, dövrə uyğun xüsusiyyətlər kəsb etməsi əslində

vahid cəmiyyətin inkişafının ümumi qanunauyğunluqlarından doğur. Bu məsələdə mühüm olan isə xalqın dəyişən dəyərlər dönəmində öz varislik ənənələrinə sadiq qalması, milli-mənəvi simasını itirməməsi, malik olduğu əhəmiyyətli dəyərləri müasir tələblərə uyğunlaşdırıb saxlamasıdır.

Milli müstəqillik və demokratiya, hüquqi dövlət quruculuğu yolunda atılan addımlar milli-mənəvi dəyərlərin ictimai həyatda rolu və əhəmiyyətinin artması ilə əlamətdardır. Bununla əlaqədar olaraq çağdaş Azərbaycan cəmiyyətində milli-mənəvi dəyərlərin tədqiq olunmasında məqsəd qloballaşan dünyada öz mənimizi saxlamaqla, mövcud qarışıqlıq və xaosu azaldaraq, getdiyimiz yolda həyatımızda doğru davranışların hakim olmasına şərait yaratmaqdır. Bu həm də yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi ilə bağlı problemlərin uğurlu həlli baxımından vacibdir.

XX əsr fəlsəfəsi özünün yeni-yeni sahələri ilə diqqəti cəlb edir. Hər bir sahədə olduğu kimi, fəlsəfi biliyin ənənəvi sahələrindən biri olan aksiologiyada da müasir dövrün mühüm problemlərinin həll edilməsi yolunda praktiki addımların atılması daha da sürətlənmişdir. Milli-mənəvi dəyərlər anlayışına dair elmi axtarışların aparılması zəruriliyi həm də bununla izah edilir ki, müasir dövr onların hər birinin məzmununda yeni çalarlar yaradır.

Milli-mənəvi dəyərlər sahəsində ölkədə xüsusi tədqiqatlar hələ ki, fərdi səviyyələrdə aparılır. Qeyd etdiyimiz sivilizasiya və mədəniyyət problemləri ilə siyasət arasındakı əlaqələrin metodologiyasını hazırlamaq səviyyəsinə çox təəssüf ki, hələ çatmamışıq. Amma alimlərimiz bu istiqamətdə də tədqiqatlara böyük önəm verməklə vacib iş görmüş olurlar. Çünki mədəniyyətin milli-mənəvi dəyərlər probleminin özü də bir arqument, vasitədir. Milli dəyərlər ilk növbədə dünyagörüşü əsasında formalaşır. Öz növbəsində dünyagörüşü tarixi yaddaşdan, cəmiyyətin mövcud oldugu zaman və məkanda yaranan ideyalardan qaynaqlanır. İndi cəmiyyətdə beynəlxalq miqyasda baş verən köklü dəyişikliklər hər bir fərdi bu və ya digər şəkildə öz əhatə dairəsinə cəlb edir, onlara tamam fərqli nəzərlərlə təsir etmə imkanı verir. Cəmiyyətdə baş verən bu hallar milli-mənəvi dəyərlərdə müəyyən boşluqlar yaradır. Belə şəraitdə cəmiyyətimizin milli-mənəvi dəyərlərini qoruyub saxlamaq və inkişaf etdirmək ən vacib problemlərdən biri sayılmalıdır.

Azərbaycanın müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurulduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə çatdırılması getdikcə daha çox aktuallıq kəsb edir. Buna gorə biz fəxrlə deyə bilərik ki, dövlətimizin milli-mənəvi dəyərlərin mühafizəsinə göstərdiyi qayğı xalqımızın gələcək inkişafının əsasıdır.

**Problemin işlənmə dərəcəsi.** Mənəvi dəyərlər problemi Aristotel, Platon kimi antik filosoflardan tutmuş müasir mütəfəkkirlərə qədər bir çox

filosofları, psixoloqları, sosioloqları maraqlandıran, suallar doğuran və bu suallara cavab axtarılan aktual mövzu olmuşdur. Məşhur filosoflardan Sokrat,Platon,Aristotel,Avqustin,Kant,Hobbs,F.Şellinq,Hegel,A.Şopenhauer, Nitsşe, O.Şpenqler, Epikür, M. Stirner, J.P.Sartr , D.Hume, J.Bentam və J.S.Mill, Şeller,B.Peri və başqaları mənəvi-əxlaqi, milli-mənəvi dəyərlər nəzəriyyəsinin fəlsəfi əsaslarını, təhlilinin spesifikliyini işləyib hazırlamışlar.

Həmçinin, milli-mənəvi dəyərlər probleminin ayrı-ayrı aspektləri rus filosofları və sosioloqları E.V.İlenkov, V.P.Tuqarinov, L.N.Tolstoy və N.Q.Çernişevskinin əsərlərində təhlil olunmuşdur.

Milli-mənəvi dəyərlər probleminin ümumfəlsəfi və sosioloji səpkiləri Azərbaycan filosofları və sosioloqları A.Əsədov, K.Əzimov, R.Əzimova, Z.Göyüşov, Z.Hacıyev, R.Həsənov, S.Xəlilov, H.İmanov, F.Qasımzadə, R.Mehdiyev, İ.Məmmədzadə, A.Mustafayev, İ.Rüstəmov Y.Rüstəmov, M.Rzayev,N.Şəmsizadə, A.Şükürov, A.Rüstəmova, Ə.Tağıyev, Ə.Abbasov və b. tərəfindən araşdırılmışdır.

**Tədqiqatın mənbələri.** Tədqiqatın əsas mənbəyi dünya və Azərbaycan filosoflarının və tarixçilərinin əsərləridir. Ümumimilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu mövzu ilə bağlı fikirləri də elmi işin əsas mənbələrindəndir.

Bütün bunlarla bərabər qeyd edilməlidir ki, milli-mənəvi dəyərlərin mənbələrinin öyrənilməsində sovet dövründə yazılmış əsərlərin rolunu heçə endirmək elmi ədalətsizlik olardı. Belə ki, mənəvi dəyərlərin araşdırılması üçün bir sıra müddəalar məhz həmin dövrün elmi və nəzəri fikrinin məhsuludur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini keçid dövründə milli-mənəvi dəyərlərin transformasiya prosesi təşkil edir.

Tədqiqatın predmetini isə, dəyərlərin əsas xüsusiyyətləri, milli-mənəvi dəyərlərimizin transformasiyasının cəmiyyətimizə təsiri, milli-mənəvi dəyərlərin qorunmasında, inkişafında dövlətimizin rolu təşkil edir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi milli-mənəvi dəyərləri tədqiq etmək, mahiyyətini açmaq,müasir sosial proseslərin onda yaratdığı irəliləyişləri araşdırmaq, inkişaf istiqamətlərini müəyyənləşdirmək və aksioloji təhlilini verməkdir. Bu məqsədə nail olmaq üçün tədqiqatda aşağıdakı konkret vəzifələr irəli sürülür və həll edilir:

- dəyər anlayışının, milli-mənəvi dəyərlərin sosial-fəlsəfi təhlilini vermək, onların sistemli tədqiqinin əsas prinsiplərini izah etmək;
- milli müstəqillik və demokratiya, hüquqi dövlət quruculuğu yolunda atılan addımlar zamanı milli-mənəvi dəyərlərin ictimai həyatda rolu və əhəmiyyətinin artmasındakı yenilikləri izləmək;

- Azərbaycançılıq anlayışını milli-mənəvi dəyərlər sistemində təhlil etmək;

- milli-mənəvi dəyərlərin dövlətçilikdə rolunu açmaq;

- ziyalıların milli-mənəvi dəyərlər sistemində yerini və rolunu açıb göstərmək;

- milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında Azərbaycan dövlətinin rolunu araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– dəyərlər anlayışının fəlsəfi təhlilinin ümumnəzəri və metodoloji əsasları, dəyərlərin müxtəlif növləri müasir dövrün reallıqları nəzərə alınmaqla dəqiqləşdirilir;

– milli-mənəvi dəyərlərin təhlilinin nəzəri prinsiplərinə dair ənənəvi fəlsəfi ədəbiyyatda irəli sürülmüş baxışlar milli müstəqillik şəraitinə nəzərən konkretləşdirilir və dəqiqləşdirilir;

– ilk dəfə olaraq Azərbaycanda keçid dövründə milli-mənəvi dəyərlərin transformasiyası araşdırılır, baş verən yeniliklər hərtərəfli təhlil olunur;

- azərbaycançılıq ideologiyasının milli-mənəvi dəyərlərin, dövlətçilik ideologiyasının yaranmasında və qorunmasınındakı yeri və artmaqda olan rolu üzə çıxarılır;

– yeni cəmiyyətə keçid mərhələsində milli-mənəvi dəyərlər ziyalıların qəbul etdiyi əsas prinsiplər kimi təhlil olunur;

- milli-mənəvi dəyərlərin inkişafında və qorunmasında Azərbaycan dövlətinin rolu araşdırılır.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya işinin metodoloji əsasını klassik fəlsəfi fikirdə və müasir dövr filosoflarının əsərlərində keçid dövrü, dəyər və milli-mənəvi dəyərlər probleminə dair irəli sürülmüş müddəalar təşkil edir. Dissertasiya işində sistemli təhlil, struktur-funksional yanaşma, mücərrəddən konkretə yüksəlmə, tarixi-müqayisəli təhlil və başqa metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əhəmiyyəti.** Dissertasiyada əldə olunmuş nəticələrin elmi-nəzəri əhəmiyyəti bundadır ki, onlar milli-mənəvi dəyərlər probleminə dair mövcud fəlsəfi təsəvvürləri xeyli dərəcədə dəqiqləşdirir və dərinləşdirir. Əldə edilən elmi nəticələr insanı öyrənən konkret elmlər (sosiologiya, psixologiya, sosial psixologiya, politologiya, kulturologiya və s.) üçün metodoloji əhəmiyyət kəsb edir.

Bütün bunlar müasir fəlsəfi fikir qarşısında aşağıdakı nəzəri məsələlərin həlli zəruriliyini irəli sürür:

– insanın və cəmiyyətin həyatında milli-mənəvi dəyərlərin rolu;

– milli-mənəvi dəyərlərin qorunmasında milli fəlsəfi fikrin rolu;

– milli dəyərlərlərimizin inkişafında və formalaşmasında bir amil kimi dövlətin ideoloji rolu;

– Azərbaycan xalqının tarixi ənənələri, vətən amalı, humanizm, həmrəylik kimi milli-mənəvi dəyərlərində ziyalılarımızın rolu və s.

İnkişafda olan dünyamızda hamı tərəfindən qəbul olunmuş məsələlərin özündə də yeni-yeni çalarlar üzə çıxır ki, onların izahında fikir ayrılıqları, mübahisələr yaranır və buna görə də milli-mənəvi dəyərlər istiqamətində elmi axtarışları davam etdirmək zəruridir.

Tədqiqatın elmi-praktik əhəmiyyəti ondadır ki, əldə olunmuş nəticələr konkret olaraq aşağıdakı sahələrdə tətbiq oluna bilər:

– müasir dövrdə milli-mənəvi dəyərlərin formalaşması prosesinin elmi şəkildə idarə olunmasında;

- ölkəmizdə və onun xaricindəki diaspor cəmiyyətlərində milli-mənəvi dəyərlərimizin hansı səviyyədə qorunub inkişaf etdirilməsinin müəyyənləşdirilməsində;

– fəlsəfə, ədəbiyyat və tarix üzrə ixtisaslaşan tələbə, magistrant və doktorantların hazırlığı üçün istifadə edilməsində.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir. Elmi işin əsas məzmunu məqalə kimi bir sıra elmi jurnallarda dərc olunub. Həmçinin bu tədqiqat işinin əsas müddəaları və nəticələri müəllif tərəfindən aşağıdakı elmi konfranslardakı çıxış və məruzələrdə öz əksini tapmışdır: "Ümummmilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri" mövzusunda keçirilən Ümumrespublika elmi nəzəri konfransında (Bakı, 2010), "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda keçirilən beynəlxalq elmi-nəzəri konfransda (Bakı, 2012).

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil əhatə edən doqquz yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN QISA MƏZMUNU

**Giriş**də tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənilmə dərəcəsi işıqlandırılır, tədqiqatn obyekti, predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yeniliyi açıqlanır, işin nəzəri və təcrübi əhəmiyyəti göstərilir.

Dissertasiya işinin I fəsli "**Milli-mənəvi dəyərlərin fəlsəfi mahiyyəti"** adlanır və üç yarımfəsildən ibarətdir. Burada milli-mənəvi dəyər anlayı-

şının fəlsəfi mahiyyətini araşdırmağa cəhd edilmiş, fəlsəfədə dəyər anlayışının antologiyası ön plana çəkilmişdir.

Dissertasiyanın I fəslinin birinci yarımfəsli **"Fəlsəfədə dəyər anlayışı"** adlanır. Bu yarımfəsildə fəlsəfi fikir tarixində dəyər anlayışının qoyuluşun və təkamülünün qısa icmalı verilmişdir. Dəyərlər problemi insanın dünyanı dərk etməyə və dəyişdirməyə yönələn, onun humanist varlığa çevirməyə istiqamətlənən fəaliyyətindən irəli gəlir. Çünki dəyərləndirmə və qiymətləndirmə şəxsiyyətin daxili atributiv keyfiyyəti olmaqla, onun şüuru ilə real gerçəklik arasında əlaqələrin bütün tərəflərini əhatə edir.

Şəxsiyyətə dəyərlər baxımından yanaşma çox qədimlərdən başlayaraq özünü göstərmişdir. Belə ki, hələ qədim Şərq fəlsəfəsində, xüsusilə də Hind və Çin fəlsəfi təlimlərində bu problem irəli sürülmüş və ona cavab verilmişdir. Şəxsiyyətin dəyərlər mövqeyindən mənalandırılması Sofist Protaqorun insanı hər şeyin ölçüsü kimi qiymətləndirməsində, Demokritin insani xeyirxahlıqlar haqqında ideya və müddəalarında, Sokratın praktiki fəlsəfəsində də ifadə olunmuşdur. Dəyərlərə differensial mövqedən yanaşmaq cəhdləri Aristotelin yaradıcılığında özünü göstərmişdir.

Orta əsrlər fəlsəfəsində dəyərlər ilahi mahiyyətilə əlaqələndirilir və dini xarakter daşıyırdı. İnsan varlığının özünəməxsus strukturlu və çoxpilləli dəyərlərə malik olması ilə bağlı müddəalar intibah fəlsəfəsində və yeni dövrün mütəfəkkirlərinin elmi yaradıcılığında əhəmiyyətli yer tutmuşdur.

Dəyər termini əvvəlcə iqtisadi mənada XVIII əsrin ingilis iqtisadçısı Adam Smith tərəfindən hər hansı bir əşyanın dəyişmə dəyəri üçün işlədildi. Dəyər terminini fəlsəfi mənada ilk dəfə işlədən Lotse insanın dünya münasibətlərinin ancaq insanın özü tərəfindən şəkilləndirilə biləcəyini, dəyərlərin insanın yönəltdiyi, onun verdiyi mənalardan ibarət olduğunu irəli sürdu. Edvard Qartman isə "Dəyər fəlsəfəsinin açarı" adlı əsərində dəyər və dəyər fəlsəfəsi termininin işlənmə sahələrini genişləndirdi. Sözün əsl mənasında dəyər anlayışını ifadə edən İ.Kantın fikrincə, dəyərlər sözün müəyyən mənasında iradəyə qarşı yönələn tələblər, insanın qarşısında duran məqsəd, bu və ya digər amilin şəxsiyyət üçün əhəmiyyətliliyi deməkdir.[1] Hegelin fəlsəfi təlimində dəyərlərin iqtisadi (utilitar) və mənəvi növləri bir-birindən fərqləndirilir. Avropada dəyər terminə ən dərin mənanı verənF.Nitşe oldu.Onun fikrincə, insan dünyaya həmişə müəyyən dəyərlər, müəyyən dəyərləndirmələrlə baxır.

Azərbaycan fəlsəfi fikrində Y.Rüstəmov, Niyazi Mehdi, Z.Hacıyev və b. əsərlərində dəyər anlayışını şərh olunmuşdur. Məsələn, Y.Rüstəmo-

[1] Kant və Yeni Kantçılk. Doğan Özlem. İstanbul: Yapı Kredi Yayınları, Cogito Sayı; 42, 2005, s. 20.

vun fikrincə,"dəyər öz mahiyyətinə görə həm sosial, həm də fərdidir, o maddi və mənəvi dünya obyektlərinin ümumi cəhətdən müəyyənləşdirilməsi, onların insan və cəmiyyət üçün müsbət və mənfi tərəflərinin üzə çıxarılmasıdır... Dəyər anlayışı "əhəmiyyət", "fayda" və ya "ziyan" anlayışı ilə əlaqədədir".[1]

Beləliklə, dəyərlər iki növə ayrılır: predmet dəyərləri və subyekt dəyərləri. Birincilər ətraf aləmdəki obyektləri xeyir və şər, həqiqət və yalan, gözəl və eybəcər, ədalətli və ədalətsiz kimi qiymətləndirir. Subyekt dəyərləri isə insanların fəaliyyəti və davranışının oriyentirləri və meyarları rolunu oynayır. Dəyərlərin predmet və subyekt növlərinə ayrılması ilə yanaşı, digər əlamətlər üzrə təsnifatlar da mövcüddur. Onlardan biri də aşağıdakı bölgüdür: 1. Ekzistensial və essensial dəyərlər; 2. Mövcüd olan və fikirdə tutulan, ideal dəyərlər; 3. Arzu olunan və normativ.

Müasir fəlsəfi ədəbiyyatda dəyərlərin mahiyyəti və məzmunu haqqında müxtəlif fikirlər söylənilir. Onları əsasən aşağıdakı kimi üç cür qruplaşdırmaq olar: 1. Dəyəri müəyyən fayda verən və insanın hər hansı tələbatını ödəyə bilən predmet kimi götürənlər; 2. Dəyərə norma və ideal kimi yanaşanlar; 3. Dəyərə ümumillikdə insan və ya sosial qrup üçün əhəmiyyətlilik kimi təsəvvür edənlər.

Əxlaq fəlsəfəsi həmçinin "dini əxlaq" və ya "layik əxlaq" olaraq iki qrupa ayrılır. Layik əxlaq əxlaqi dəyərlərin qaynağını insanda və insan ağlında axtararkən, dini əxlaq əxlaqi dəyərlərin qaynağını Tanrıda və Tanrının müqəddəs kitablarında axtarır.

Elmi dəyərlər də dini dəyərlər kimi həm əxlaqi dəyərlər sırasına daxil edilə bilər, həm də bir sıra xüsusiyyətlərinə görə ayrıca əxlaqi dəyərlər, dini dəyərlər və elmi dəyərlər olaraq öyrənilir.

Siyasi dəyərlərin nəzərdən keçirilməsi əxlaqın və siyasətin nisbətini aydınlaşdırmağı da tələb edir. Bu, siyasi fəlsəfi fikir tarixində ən mübahisəli məsələlərdən olmuş və müxtəlif fikirlər doğurmuş, bir qrup əxlaqın siyasətə tabe etdirilməsi fikrini irəli sürdü, bir qrup isə siyasətin əxlaqa tabe etdirilməsin tələbi ilə çıxış etdi.[2]

Beləliklə, sübut olundu ki, əxlaq və siyasət heç də ictimai həyatın bir-birindən tamamilə təcrid olunmuş sferaları deyildir. Onlar qəbul olunmuş dəyərlər iyerarxiyası əsasında həyat hadisələrinə qiymət verir və beləliklə də, hər biri konkret məzmunla və konkret şəraitdə çıxış edirlər.

Dissertasiyanın I fəslinin ikinci yarımfəsli "**Dəyərlərin nəzəri əsasları**" adlanır. Keçid dövründə şəxsiyyətin formalaşmasında oynadığı

[1] Rüstəmov Y. Fəlsəfənin əsasları: mühazirə. Bakı: Azərbaycan Universiteti, 2004, s. 99.
[2] Şirəliyev H.,Əhmədov Ə. Politologiya. Bakı: Aristroff, 2014, s. 76.

təsir baxımından milli-mənəvi dəyərlər xüsusilə böyük yer tutur. Milli-mənəvi dəyərlər onun real həyat ilə çoxtərəfli və rəngarəng münasibətləri strukturuna son dərəcə müxtəlif təzahür formaları kimi daxil olur. Buradan aydındır ki, fəlsəfi antropologiyanı aksioloji problematikadan kənarda təsəvvür etmək ağlasığmazdır.

Aksiologiya ümumi dəyərlər nəzəriyyəsi, dəyərlərin fəlsəfi əsaslarını öyrənən elmdir. Bu təlimdə insan fəaliyyətinin təbiəti, xarakteri, üsulları, həyati məna kəsb edən reqlamentlər və motivlər əsas yer tutur. Dəyər şüuru real varlıq ilə arzu olunan varlığın qovşağında, mövcud olan ilə olmalı olan, fəaliyyət göstərən ilə tələb olunan tərəflərin arasında yerləşir.

Qədim yunan fəlsəfəsində şəxsiyyətin dəyər mövqeyindən mənalandırılması sofist Protaqorun insanı hər şeyin olçüsü kimi qiymətləndirməsində, Demokritin insani xeyirxahlıqlar haqqında ideya və müddəalarında, Sokratın praktiki fəlsəfəsində ifadə olunmuşdur. Bu ənənələrə arxalanaraq Platonun ideyaya (eydosa), insanın fəaliyyət və seçimində bu və ya digər prioritetlərə üstünlük verməsi haqqındakı baxışları insanın varlığına dəyərlər mövqeyindən yanaşmağın ilk nümunələrini təşkil edir.

Fəlsəfi ədəbiyyatda dəyərlər aşağıdakı üç keyfiyyəti ilə səciyyələnir: 1. Onlar subyektdə obyektə qarşı dəyər şüurunun və bütövlükdə sosial-mədəni amillərin təsiri altında formalaşan emosional bəzək vurulmuş mənafeləri, prioritetləri, ustanovkaları ifadə edən münasibəti bildirir; 2. İdrakın öz daxilindəki dəyər oriyentasiyalarıdır, yəni elə sırf məntiqi-metodoloji, o cümlədən də dünyagörüşü donu geymiş parametrlərdir ki, onlara əsaslanmaqla qiymətlər verilir, təsviretmənin, izahetmənin, sübutetmənin, biliyi təşkil etmənin forma və üsulları seçilir. 3. Dəyərlər idrakda obyektiv həqiqi predmet biliyi və səmərəli operasional bilik deməkdir. Məhz sonuncular öz həqiqiliyi, doğruluğu və informativ baxımdan zənginliyi sayəsində cəmiyyət üçün əhəmiyyət və dəyərlilik kəsb edir.[1]

XX əsrin ikinci yarısından etibarən dəyərlər haqqında baxışlar bitkin təlimlər kimi ifadə olunmağa başlamış, aksiologiya müstəqil fəlsəfi bilik sahəsi kimi formalaşmış, yeni konsepsiyalar meydana gəlmişdi. Onların sırasında naturalist psixologizm, aksioloji transendentalizm, personalist ontoloqizm və dəyərlərin sosioloji konsepsiyaları xususilə mühümdür.

Naturalist psixologizm konsepsiyası dəyərlərə empirik müşahidə oluna bilən obyektiv reallıq amilləri kimi yanaşaraq göstərir ki, onların mənbəyi insanın bioloji və psixoloji tələbatları ilə bağlıdır.

Aksioloji transendentalizm - neokantçılıq konsepsiyasıdır. Onun nümayəndələri (V.Vindelband, H.Rikkert və b.) dəyərləri obyektiv reallıq

---

[1] Rzayev M.H. Fəlsəfədə dəyər kateqoriyası. Bakı: AzTU – nun mətbəəsi, 2009, s. 11.

deyil, ideal varlıq hesab edirdilər, dəyərlər insanların arzularından asılı olmayaraq müstəqil mövcüddur, dəyərlər reallıq deyildir, onlar şüurun, transendental subyektin daşıyıcısı olduğu ideal varlıqdır, dəyərlər insandan asılı olmayan normalar kimi götürülür.

Personalist ontologizm tərəfdarları (M.Şeler və başqaları) dəyərlərin obyektiv xarakterini qəbul edir və göstərirlər ki, predmetlərdəki dəyərləri onların empirik təbiəti ilə eyniləşdirmək doğru deyildir, rəng onun məxsus olduğu predmetdən asılı olmadığı kimi, dəyərləri də aid olduqları predmetlərdən kənarda seyr etmək mümkündür. Bu təlimə görə, ən ali dəyər isə müqəddəslik dəyəri, Allah ideyasıdır.

Yeni kantçılığın Baden məktəbi üçün ümumi olan aksioloji yanaşmadır. Bu yanaşmaya görə, insan mədəniyyətinin əsasında ideal dəyərlər dayanır. Vindelband dəyərlərin dörd növünü fərqləndirir: 1) məntiqi dəyərlər; 2) etik dəyərlər; 3) estetik dəyərlər; 4) dini dəyərlər.[1]

H.Rikkert varlığı subyektin ən ümumi və şəxssiz şüuruna çevirirdi və altı növ mədəniyyət və onlara uyğun olan altı dəyərlər tipini ayırır: məntiq (həqiqət), estetika (gözəllik), mistika (fovqəlşəxsi müqəddəslik), etika (əxlaq), erotika (xoşbəxtlik), din (şəxsi müqəddəslik).

Dəyərlərin sosioloji konsepsiyasını M.Veber yaratmışdır. Dəyər anlayışını da sosiologiyaya ilk dəfə o daxil etmişdir. M.Veberə görə, dəyər sosial subyekt üçün müəyyən əhəmiyyət kəsb edən norma deməkdir.[2]

1960-cı ildən sonra dəyərləri altı qrup halında yığmaq ənənə halını almışdır: estetik, nəzəri (və ya elmi), iqtisadi, siyasi, ictimai və dini dəyərlər. Dəyərlər müəyyən mənada bizim həyatımızın məqsədləridir.

Keçid dövründə baş verən əsaslı və hərtərəfli transformasiya proseslərinin təsiri altında milli-mənəvi dəyərlərin cəmiyyətdə yeri və rolunda ciddi dəyişikliklər özünü göstərir. Şəxsiyyətin sosiallaşması prosesinə göstərdiyi təsirin dərəcəsi baxımından da bəzi dəyərlər digərlərindən yüksəkdə durur. Milli-mənəvi dəyərlərin bir qismi ictimai ideal və mədəni-tarixi inkişafın hamı tərəfindən qəbul olunmuş məqsədi kimi çıxış edir.

Şəxsiyyətin dəyərləri üç əsas mənbə hesabına formalaşır. Onlardan birincisini insanların yaratdığı və nəsildən-nəslə keçirdiyi, lakin konkret cəmiyyətin fövqündə duraraq ümumbəşəri səviyyəyə yüksəlmiş aksioloji formalar təşkil edir; ikincisi şəxsiyyətin yaşadığı cəmiyyətdə, real sosial mühitdə əsas yer tutan dəyərlər sistemi; üçüncüsü şəxsiyyətin özünün sosial statusu, rolu, dünyagörüşü, bilik və mədəni səviyyəsi, şəxsi təcrübəsi nəticəsində formalaşan dəyərlərdir.

---

[1] Gökberk. M.Felsefe Tarihi. İstanbul: Remzi kitabevi, 1999, s. 123.
[2] Alfred Weber. Felsefe Tarixi, (çevr.Vehbi Eralp), İstanbul, 1998, s. 34.

Beləliklə, aksiologiyanın sistemyaradıcı funksiyaları insan idrakının bütün sfera və tərəflərində çox mühüm əhəmiyyət kəsb edir. Fəlsəfi biliklər sistemində aksiologiyanın yeri hər şeydən əvvəl bununla müəyyən olunur ki, o, insan varlığının dəyərli istiqamətlənmiş səpkisini ifadə edir.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəsli **"Milli-mənəvi dəyərlərin əsas xüsusiyyətləri"** adlanır. Müasir Azərbaycan cəmiyyəti üçün zəruri və mühüm amillərdən biri insanların dünyagörüşünün formalaşmasında və tərbiyəsində milli-mənəvi dəyərlərdən düzgün istifadə olunmasıdır. Bu məsələlərin həllinə isə yalnız milli-mənəvi dəyərlərin qorunub inkişaf etdirildiyi və sosial ədalət prinsipinin hökm sürdüyü demokratik cəmiyyətdə nail olmaq mümkündür.

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması üçün mədəni abidələrin, ailənin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır.

Keçid dövründə Azərbaycan xalqının ictimai-siyasi fikrində və fəlsəfi ədəbiyyatında böyük maraq doğuran problemlərdən biri də onun milli mentalitet məsələsidir. Milli siyasi şüurun birinci mərhələsini milli mentalitet, ikinci mərhələsini isə milli ideologiya təşkil edir və ona görə də onlar bir-biri ilə qırılmaz surətdə əlaqədardırlar. Milli mentalitet son illərədək elmi-nəzəri ədəbiyyatda milli xarakter kimi səciyyələndirilmişdir. Milli xarakterin xüsusiyyətləri içərisində aşağıdakılar xüsusilə seçilir: 1) Milli xarakter milli özünüdərkin əsasında durur; 2) Milli xarakter irsən, tərbiyə prosesində yaranır; 3) Milli xarakter özünü kollektiv fəaliyyətdə, xüsusən milli-etnik proseslərdə göstərir.[1]

Milli mentalitet – milli siyasi şüurun ilkin mərhələsi olmaqla milli xarakter, milli mənlik şüuru, milli psixologiya, milli mədəniyyət, milli qürur hissi, milli maraqlar, milli təhlükəsizlik problemləri və s. amillərlə bağlıdır. Bu amillər millətin dünyagörüşünü ifadə edir, başqa millət və xalqlarla siyasi münasibətinin əsaslarını yaradır.

Milli psixologiya milli siyasətin həm obyekti, həm də subyektidir. Sonuncusu milli psixologiyada formalaşır və milli psixologiya vasitəsilə idarəedici qüvvəyə çevrilir. Hər bir millətin psixologiyası isə onun milli-mənəvi dəyərlərini, tarixi düşüncə tərzini, adət-ənənələrini, bədii təfəkkürünü, etik və estetik baxışlarını, dünyagörüşünü yüksək bədii formalarda, kompleks şəkildə özündə əks etdirən milli mədəniyyətdə ehtiva olunur.

Mənəvi mədəniyyət bu və ya digər sosial sistemdə formalaşan şəxsiyyətin mənəvi aləmini də şərtləndirir. Hər bir cəmiyyətin mənəvi

[1] Tağıyev Ə. Fəlsəfə. Bakı: Zərdabi LTD, 2012, s. 248.

həyatı həmin cəmiyyətdə mənəvi mədəniyyətin inkişaf dərəcəsi və nailiyyətləri ilə səciyyələnir. Mənəvi mədəniyyət mənəvi həyatın bütün mədəni nəticələrini özündə birləşdirir.

İnsan kimliyini, soykökünü ilk növbədə dil vasitəsilə tapır və dərk edir. Azərbaycan dili tarixi ənənəsi olan kamil dillərdən biridir. M.Füzulidən C.Məmmədquluzadəyə, S.Ə.Şirvanidən M.F.Axundova, C.Cabbarlıdan S.Vurğuna, qədər bütün klassiklərimiz üçün ana dilinin qorunması, inkişafı, yaxın regionlardakı dillərlə rəqabəti prinsipial əhəmiyyət kəsb etmişdir. Ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Azərbaycana rəhbər təyin edilən ümummilli lider Heydər Əliyev respublikanın iqtisadi, ictimai-siyasi və mədəni-ideoloji həyatında böyük dirçəliş yaratmaqla yanaşı, ana dilinin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir.

Azərbaycan xalqının mənsub olduğu İslam dini isə insanın məqsədini, həyatın mənasını bilavasitə təlqin edir. İslam dininin əsas qaynağı Qurani-Kərimdir.

Ən mühüm milli-mənəvi dəyər, əxlaqi və sosial hiss vətənpərvərlikdir. Vətən sevgisi insanın mənəviyyatını müəyyən edən, zənginləşdirən, böyük əhəmiyyət kəsb edən əxlaqi bir dəyər qazanmışdır.

Milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında mühüm rol oynayan dövlətçilik şüurunun, müəyyən bir dövlətə mənsub olmaq hissiyyatının əsas əlamətlərindən və vasitələrindən biri də dövlət rəmzləridir. Buraya ilk növbədə dövlət bayrağı, gerb və dövlət himni aiddir.

Azərbaycan dövlət rəmzlərinin məna və mahiyətindən bir daha aydın olur ki, bayrağımız, gerbimiz və himnimizdəki simvolikalar sırf "türkçülük, islamçılıq, müasirlik" düsturu ilə yaradılmış və indi də, gələcəkdə də Azərbaycan xalqının milli şüurunun dirçəlməsinə xidmət edəcəkdir.

Dissertasiyanın II fəsli "**Müstəqillik dövründə milli–mənəvi dəyərlərin əsas istiqamətləri**" adlanır və üç yarımfəsildən ibarətdir.

Dissertasiyanın II fəslin birinci yarımfəsli "**Milli-mənəvi dəyərlərin transformasiyası**" adlanır. Milli-mənəvi dəyərlər bütün xalqların tarixi inkişaf mərhələsində zaman içində transformasiyaya uğramışdır. Dəyərlərin transformasiyası ənənəvi və fərdi dəyərlərin çevrilmə mərhələsini göstərir. Milli-mənəvi dəyərlərin transformasiyasının bir sıra səbəbləri var. Bunlara keçid dövrünü, informasiyanın sürətli axınını, sosial şəbəkələri, texnikanın inkişafını, beynəlxalq əlaqələrin güclənməsini, qlobal böhranı, artan coğrafi hərəkətliliyi və s. göstərmək olar.

"Dəyərlərin transformasiyasının" düşüncə forması 1966–cı ildə professor Heistermannın "Əxlaq Nəzəriyyəsi" fəlsəfi işində rədd etdiyi "əxlaqi dəyərlərin böhranı"nda özünü göstərmişdir. Əxlaqi dəyərlər üçün "Böhran təhlükəsi daşımazlar və "bəli - xeyr" kimi tək bir mənaları vardır."

deyən Heistermann, bu işiylə dəyərlərdəki transformasiyanı ciddi qəbul etməmişdir. Bununla yanaşı, daha sonrakı araşdırmalarda bu mövzuyla əlaqədar ortaya çıxa biləcək böhranların isə; müəyyən bir yetişdirmə tərzi ya da cəmiyyətdə var olan ictimai quruluşdan müstəqil davranışlardan qaynaqlandığını irəli sürmüşdür.

Transformasiya millətlərin həyatında hər vaxt güclənən bir faktdır. Cəmiyyət çox vaxt təbii bir meyllə fərqinə belə varmadan transformasiyaya uğrayır. Milli-mənəvi dəyərləri transformasiyaya uğramayan bir cəmiyyət düşünülə bilməz. Ancaq milli-mənəvi dəyərlərin transformasiyası cəmiyyəti irəliyə aparan bir inkişaf olmaya da bilər. İctimai dəyişmə, təbii və ya məcbur etməklə meydana gəlir. Zorla və məcbur etmə şəklindəki mədəniyyət dəyişmələri, fərqli mədəniyyətlərə sahib qrup və birliklərin, öz mədəniyyətlərinin bəzi istiqamətlərini və ya hamısını qəbul etməsi üçün digərinə müxtəlif üsullarla təzyiq tətbiqi nəticəsi meydana gəlir. Bunu bir transformasiya deyil "dəyişdirmə" olaraq xarakterizə etmək daha doğru olar. Azərbaycanın keçirdiyi köklü dəyişikliklərə baxmayaraq milli mənliyini və milli-mənəvi dəyərlərini mühafizə etməsi, onun yüksək xarakteri ilə yaxından əlaqəlidir. Milli-mənəvi dəyərlərin transformasiyası iki şəkildə meydana gəlir: 1. Zəruri transformasiya; daxili və xarici məcbur etmələr və təzyiq yolu ilə milli-mənəvi dəyərlərin transformasiyasıdır; 2. Sərbəst transformasiya; bir cəmiyyətin, başqa cəmiyyətlərin mədəniyyətini, heç bir təzyiqə uğramadan mənimsəyib mənliyinə uydurmasıdır. Milli-mənəvi dəyərlərin qorunmasının zəruriliyi qədər, transformasiyası da qaçınılmazdır. Transformasiya, ana dəyərləri pozmadan, keçmiş ilə əlaqəni qoparmadan yeniliklərin mənimsənib, milli və ictimai şüura uyğunlaşdırılmasıdır. Milli şüura uyğun gəlməyən yeniliklər transformasiya olaraq deyil, pozulma olaraq xarakterizə edilməlidir. Azərbaycanın milli kimliyinə, milli mentalitetinə bağlı olması keçid dövründə milli-mənəvi dəyərlərin doğru transformasiyasının əsasına çevrilmişdir.

Dissertasiyanın II fəslin ikinci yarımfəsli “**Milli-mənəvi dəyərlər və ziyalılar”** adlanır. Şəxsiyyətə və ziyalılara dəyərlər baxımından yanaşma qədimlərdən başlayaraq özünü göstərmişdir. Ziyalıların fəaliyyətinin başlıca sferası olan zehni əmək onların cəmiyyətdəki mövqeyi, funksiyası milli-mənəvi dəyərlərə bağlılığı və rolunun başlıca meyarıdır. Mürəkkəb sosial prosesin mahiyyəti və inkişaf meylini əhatəli və dərindən dərk etmək baxımından "ziyalı" anlayışının fəlsəfi-sosioloji şərhinə ehtiyac duyulur. Çünki onlar milli-mənəvi dəyərlərin, eləcə də humanitar biliklərin, mənəvi sərvətlərin başlıca və spesifik istehsalçısıdırlar.

Ziyalıları bəzi sosial qruplardan fərqləndirən yalnız yüksək ixtisaslı peşəkar zehni əmək deyildir. Ziyalılar həmçinin istehsalın təşkilində və

təkmilləşdirilməsində, fərdlərin, sosial qrupların və etnik birliklərin şüurunun və mənlik şüurunun formalaşdırılmasında xüsusi rol oynayır, mənəvi istehsalda spesifik yer tutur, özlərinə məxsus mənəvi marağa malikdirlər. İctimai təbəqə olmaq etibarilə ziyalıların həyat tərzi spesifik formalar da kəsb edir. Hər bir sosial fenomen kimi ziyalılar da mürəkkəb daxili struktura malikdirlər. Onların sosial strukturu mövcud ictimai gerçəkliyə xas olan iqtisadi, siyasi və milli-mənəvi dəyərlərin təsiri altında dəyişib inkişaf edir.

Bilikli, elmli, müəyyən bir ixtisas sahəsinə mükəmməl surətdə yiyələnmiş şəxsə də hələ ziyalı demək olmaz. Böyük alim, şair, bəstəkar da hələ ziyalı olmaya bilər. Bizdə "ziyalı" sözü nədənsə gah intelligent, gah maarifçilik kimi ifadə edilib. Azərbaycanda XIX əsrin ikinci yarısı -XX əsrin əvvəllərində kapitalist münasibətlərinin inkişafı feodal-mülkədar qaydalarına və məfkurəsinə qarşı mübarizəni, texniki tərəqqini inkişaf etdirmək üçün təbii-elmi bilikləri təbliğ etməyi, təhsili genişləndirməyi tələb edirdi. XIX əsrin sonlarında Azərbaycanda maarifçilik ideyalarının yayılması ilə əlaqədar olaraq Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənır, ictimai-fəlsəfi fikirdə yeni sosial ideyalar qərarlaşırdı. Maarifçilik mənəvi mədəniyyətin bütün sahələrinin inkişafına yeni istiqamət verməklə mədəniyyətin strukturunda getdıkcə radikal dəyişikliklər əmələ gətirdi.

Anadilli ədəbiyyatımızın böyük ustadları Şah İsmail Xətai, Məhəmməd Füzuli, XVIII əsrdə Molla Pənah Vaqif ana dilimizin inkişafında böyük rol oynadılar. XIX əsrdə o dövrün görkəmli maarifçiləri Seyid Əzim Şirvani, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və b.-nın ana dilində dərsliklərin, lüğətlərin yazılmasında əvəzsiz xidmətləri ana dilini öyrənmənin, onu qoruyub saxlamağın ən əsas yolunu məktəblərdə tədrisin ana dilində aparılmasında görmələrindən irəli gəlirdi. Ziyalıların ana dilinə hədsiz məhəbbət ilə yanaşması, tarixi yaddaşımızın itməməsi ilə bağlı olduğundan milli mənlik şüurunun oyanmasında, azərbaycanlıların təfəkküründə dünya sivilizasiyası dəyərlərinə marağın artmasına gətirib çıxarmışdır.

Milli dövlət quran, dövlətçilik ənənələrimizi bərpa edən siyasi xadim həm də bir ziyalı kimi milli ruhun yaşadılmasında hər hansı bir alimdən, şairdən, sənətkardan daha böyük xidmət göstərmiş olur, ziyalılığın ən ali mərtəbəsində dayanır. Azərbaycanı yüksək inkişaf səviyyəsinə qaldırmış Ümummilli lider Heydər Əliyevin lider kimi, ziyalı kimi cəmiyyətə və dünyaya təsiri olduqca güclü idi. Onun intellekti xalq düşüncəsinin, milli təfəkkürümüzün qaynaqlarından bəhrələnən, daha mürəkkəb, dinamik reallıqlarımızın mənimsənilməsi və dərkinin qüdrətli fenomeni, dərin fəlsəfi düşüncələrin nəticəsi, siyasətçi şəxsiyyətinin özünütəsdiqinin vacib vasitəsidir.

Keçid dövründə ziyalıların qarşısında duran ən mühüm vəzifələrdən biri də beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün saxta təbliğatlar aparan

ermənilərin Dağlıq Qarabağla, Naxçıvanla, onların tarixi və abidələri ilə uydurma təbliğatlarını ifşa etmək, beynəlxalq ictimaiyyətə doğru-düzgün məlumat çatdırmaqdır. Milli mənəvi dəyərlər ziyalının məqsədə çatmaq üçün getdiyi yoldur. Məqsəd yalnız istiqamətdir, dəyərlər isə istəyi həyata keçirən mədəniyyət yaradır.

Dissertasiyanın II fəslin üçüncü yarımfəsli "**Milli-mənəvi dəyərlər sistemində Azərbaycançılıq ideologiyası"** adlanır. Azərbaycançılıq millilik prinsipinin konkret ifadəsidir və bu keyfiyyətdə milli ideologiyanın mühüm və zəruri tərkib hissəsidir, lakin milli ideologiyanı bütövlüklə əvəz edə bilməz. Milli ideologiya azərbaycançılığa nisbətən daha geniş məfhumdur.

Milli ideya və milli ideologiya anlayışlarına müasir fəlsəfədə və politologiyada birmənalı baxış yoxdur. Birinci qrup yanaşmada azərbaycançılıq milli ideya və milli ideologiya kimi səciyyələndirilir. İkinci qrup yanaşmada milli ideya vahid cəmiyyətdə yaşayan insanları birləşdirən ortaq bir dəyər, məqsəd kimi qiymətləndirilir. Üçüncü qrup tədqiqatçılar hesab edirlər ki, milli ideya mənəvi-əxlaqi, fəlsəfi xarakter daşıyır. Dördüncü qrup yanaşmanın tərəfdarları çox olmasa da onlar milli ideologiya anlayışının mövcudluğunu ümumiyyətlə inkar edirlər.[1]

Milli ideologiyanın formalaşmasında əsas rol oynayan amillərə milli-mənəvi dəyərlər, tarixi yaddaş, milli psixologiya, milli şüur, milli mentalitet, milli mədəniyyət, din, milli maraqlar və dövləti göstərmək olar. Professor Ə.Abbasovun fikrincə, azərbaycançılıq ideyası milli ideologiya ilə eyniləşdirilməməli, yaxud da onun nümunəsi kimi nəzərdən keçirilməməlidir. Belə ki, azərbaycançılığın daxil olduğu milli ideologiyanın tərkib hissələrinə aşağıdakı prinsiplər aiddir: 1. Suverenlik; 2. Demokratiya; 3. Respublikaçılıq; 4. Ədalət; 5. Millilik; 6. Azərbaycançılıq; 7.Müxtəliflik vasitəsilə birliyə cəhd etmə; 8.Tolerantlıq; 9.Sinergizm; 10. Zəruri məhdudiyyət.[2]

XX əsrin ilk iki onilliyində milli ideologiyanın formalaşması imperializmə qarşı müqavimət şəraitində baş vermişdir. Azərbaycan həyatının müxtəlif sahələrində Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyli, H.Cavid kimi şəxsiyyətlərin imperializmə qarşı birgə fəaliyyəti sayəsində azərbaycançılığın ilkin mərhələsi yarandı. Lakin 1920-cı il rus-sovet istilası zamanı xalqımızın tarixində, elmi-bədii düşüncəsində hiyləgərcəsinə düşünülmüş sinfi bölgü aparan bolşevizm terroru "Molla Nəsrəddin" və "Füyuzat" cəbhələri yaratdı, eyni xalqın eyni məsləki fikrini inqilabçı-demokratlar və millətçi-burjualar kimi bölərək

---

[1] Miraləm E.M. Milli ideologiya dövlətin sosial və siyasi inkişafının vacib şərti kimi: Siyasi elmlər üzrə fəlsəfə doktoru diss.avtoref, Bakı: Dövlət İdarəçilik Akademiyası, 2011, s.13-14.
[2] Abbasov Ə.F. Milli maraqlar və milli ideologiya. Bakı: Təknur, 2012, s. 95.

qarşı-qarşıya qoydu. Beləliklə də, təşəkkül dövründə azərbaycançılıq ideologiya olmaq etibarilə süquta uğradıldı, dövlət siyasəti üçün fəlsəfə-ideoloji arsenala çevrilə bilmədi. Ancaq şüurlarımıza Azərbaycan Cümhuriyyəti ilə yanaşı, 70 il ərzində bir «Sovet Azərbaycanı» ideyası da hopmuşdur. Müstəqilliyin bərpasından sonrakı 22-23 illik dövrü milli ideologiya probleminin həlli baxımından bir növ «keçid dövrü» kimi qəbul etmək lazımdır. Bu «keçid»in özü də dünyada baş verən qloballaşma dövrünə təsadüf edir, hazırda Azərbaycan milli ideologiyasının müəyyənləşməsi ilə bağlı irəli sürülən mülahizələrin daha çox azərbaycançılıq, türkçülük və modernləşmək ətrafında getməsi başa düşüləndir.[1]

Azərbaycançılıq anlayışı milli siyasi müstəvidə özünün ən yüksək ifadəsini ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş siyasəti sayəsində tapa bilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev çoxəsirlik tariximizdə ilk dəfə olaraq Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyası səviyyəsinə çatdırmağa nail olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman azərbaycançılığı məhz birləşdirici ümummilli ideologiya kimi qiymətləndirir, qeyd edir ki, azərbaycançılıq ölkəmizi gələcəyə aparan yoldur. Azərbaycançılıq xətti bir tərəfdən, Azərbaycanda vahid milli-dövlətçilik hissiyatının formalaşmasını, etnik-milli yetkinləşmə və bütövləşməni nəzərdə tutursa, digər tərəfdən Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini nəzərdə tutur.

Beləliklə, azərbaycançılığın əsas amalı milli-mənəvi dəyərlərini, milli özünüdərki, milli mentallığı və xalqımızın öz milli "mən"ini dərindən anlayaraq, onu qoruyub saxlamaq və inkişaf etdirməkdir. Azərbaycançılıq fəlsəfəsini vahid Azərbaycanın ideya əsası, dünya azərbaycanlılarını birləşdirən ortaq dəyər və Azərbaycanı dünyaya tanıdan milli-mənəvi dəyərlər olaraq öyrənmək və təbliğ etməklə yanaşı, onun dərindən tədqiqi, dünya azərbaycanlıları arasında və bütövlükdə beynəlxalq miqyasda təbliği təkcə bugünün deyil, həm də sabahın tələbidir.

Dissertasiyanın III fəsli "**Qloballaşma və milli-mənəvi dəyərlərimizin perspektivləri**" adlanır və üç yarımfəsildən ibarətdir.

Dissertasiyanın III fəslin birinci yarımfəsli "**Qloballaşma şəraitində milli-mənəvi dəyərlər**" adlanır. Qloballaşma prosesi Azərbaycanın mədəni, iqtisadi, siyasi həyatına, milli-mənəvi dəyərlərinə və mənəvi-əxlaqi meyarlarına təsir göstərir. Qloballaşma fərqli mədəniyyətləri və milli əna-

[1] Ələkbərov F. Milli ideologiya probleminə tarixi – fəlsəfi baxış. (II hıssə), Bakı: Elm və təhsil, 2014, 446.

nələri, ideyaları, milli-mənəvi dəyərləri ümumdünya sistemi daxilinə qataraq sivilzasiyaların dialoqu üçün də şərait yaradır. Qloballaşma ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən milli-mənəvi dəyərlərə sirayət etdikdə mühafizəkarlıq və ya müasirlik problemi üzə çıxır. Ümummilli liderimiz Heydər Əliyev qloballaşma şəraitində milli-mənəvi dəyərlərin, milliliyin, mədəniyyətin, milli özünəməxsusluğun, azərbaycançılığın qorunub saxlanılmasına xüsusi əhəmiyyət verirdi.

Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq, cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, əvvəla, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. İkincisi, istər millətin, istərsə də dövlətin müstəqil inkişaf imkanlarının mahiyyətinə varmadan, səmərəsizliyi amansızcasına cəzalandırır və beynəlxalq səmərəlilik "çempion"larını, yəni inkişaf etmiş ölkələri isə daha da həvəsləndirir.[1]

Keçid dövründə ən aktual problemlərdən biri milli-mənəvi dəyərlər, milli-mədəniyyət və qloballaşma kimi iki kənar hal arasında optimal nisbətin tapılmasıdır. Bu dövrdə mədəniyyət siyasəti daxili və xarici siyasətin mühüm komponenti kimi çıxış etdiyindən onun daim dövlətin diqqət mərkəzində saxlanılması milli inkişafımız üçün müstəsna əhəmiyyətə malikdir. Hazırkı tarixi mərhələdə milli mədəni intellektual elitanın formalaşması ön plana keçir. Mədəni-mənəvi intellektual resurslardan maksimum istifadə etməklə adamların və eləcə də bütövlükdə millətin ümumi mədəni-mənəvi intellektual səviyyəsinin yüksəldilməsi prosesi həyata keçirilməlidir.

Sivil dövlətlərdə ümumi qayğı və məsuliyyət predmeti kimi nəzərdən keçirilən bu meyarlar hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla irəliləyərək böyük uğurlara imza atan müstəqil Azərbaycanın ictimai-siyasi həyatında da özünə möhkəm yer tapmışdır. Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra ölkədə qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini daim nəzarətdə saxlamışdır.

Milli-mənəvi dəyərlərin təşəkkülü, təkamülü və qiymətləndirmə prosesi ictimai-siyasi, tarixi proseslərlə yanaşı, ayrı-ayrı tarixi şəxsiyyətlərin milli-mənəvi inkişafında oynadığı aparıcı rol ilə də bilavasitə bağlıdır. Azərbaycan dövlətin tərəfindən qarşıya qoyulan siyasət özündə bu və digər

---

[1] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri, Bakı: XXI –YNE, 2005, s. 128.

məsələləri ehtiva edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü siyasəti Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliğinə hesablanmışdır. Yeni siyasi proseslər nəticəsində cəmiyyətin liberalaşdırılması ona gətirib çıxarır ki, insanlarda fərdi azadlıq, vətənpərvərlik, tolerantlıq, kompromislərə getmək hissləri güclənir,siyasi mədəniyyət səviyyəsi yüksəlir.

Dissertasiyanın III fəslinin ikinci yarımfəsli "**Milli-mənəvi dəyərlərin müdafiəsində Azərbaycan diasporunun yeri və rolu**" adlanır.

Azərbaycan diasporu xalqımızın tarixi qədər qədimdir. Lakin müasir diasporumuzun aparıcı qüvvəsi əsasən XX əsrdə formalaşmışdır. Bu baxımdan diasporumuzun formalaşma tarixini üç əsas mərhələyə bölmək olar: 1. 1991-ci ilə qədər olan Sovet dövrünü əhatə edir; 2. 1991-ci ildən sonrakı müstəqillik dövrüdür; 3. 2001-ci il noyabrın 10-da Bakıda keçirilən dünya azərbaycanlılarının I Qurultayından sonrakı dövrdür.

Azərbaycanlıların xarici ölkələrdə məskunlaşması prosesi yalnız Rusiyanı deyil, digər ölkələri də əhatə etmişdir. XIX əsrdə Azərbaycan diasporunun daha bir tanınmış nümayəndəsi Cəmaləddin Əfqani olmuşdur. Hər bir soydaşımızla ayrılıqda fəxr etsək də, əfsuslar olsun ki, o dövrlərdə diasporumuz təşkilatlana bilməmiş, toplum olaraq fəaliyyət göstərməmişlər.

XX əsrin əvvəllərində azərbaycanlıların xaricə axını daha geniş vüsət almağa başlamışdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xaricə axının miqyası xeyli  azalsa da, demokratik respublikanın süqutu nəticəsində faciəli bir vəziyyət formalaşdı, bolşeviklərin təqiblərindən qurtulub xarici ölkələrə mühacirət edənlərdən Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, C.Hacıbəyli və bir çox başqa tanınmış simalar qürbətdə Azərbayan diasporunun təşkilatlanması prosesinin əsasını qoymuş, xalqın öz milli-mənəvi dəyərlərinin dərk etməsində böyük təsiri olan dilin, ədəbiyyatın inkişaf etdirilməsində böyük rol oynamışlar.

Ötən əsrin 80-ci illərin sonlarında SSRİ məkanında cərəyan edən hadisələr xaricdə yaşayan azərbaycanlıların da diaspor fəaliyyətinə təsir etmiş, imperiyanın sərhədləri çərçivəsində demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatlarının güclənməsinə, bir sıra cəmiyyət və mədəniyyət mərkəzlərinin yaranmasına səbəb olmuşdur.

1990-cı ildə Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk edilən 20 Yanvar faciəsi, erməni işğalçılarının ölkəmizin ayrılmaz parçası  olan Dağlıq Qarabağın ərazisinin qəsb edilməsinə yönəldilmiş terror-təxribat aksiyaları xalqımızın milli özünüdərk hissinin güclənməsində mühüm rol oynadı və xalqı vahid qüvvə kimi  birləşdirdi.

Dünya azərbaycanlılarının qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməklə yanaşı, yaşadığı ölkədə milli-mənəvi dəyərlərimizi təbliğ etmək, qorumaqdır. Azərbaycan dilinin, milli adət və ənənələrin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması dünya azərbaycanlılarının ənənəvi borcu olmalıdır.

Azərbaycan Respublikası XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etməklə, cəmiyyətin bütün sahələrində olduğu kimi, vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlılarla əlaqələr yaratmaq istiqamətində də əsaslı dönüş yaratmışdır. Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I Qurultayının başlıca məqsədləri ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin möhkəmləndirilməsi, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsi, onların ictimai təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsindən ibarət idi.

Diasporamızın qarşısında duran həlli vacib məsələlərə bunları göstərə bilərik: milli həmrəyliyə nail olmaq üçün azərbaycançılıq idealogiyanın işlənib tamamilə hazır şəklə salınması, taktiki və strateji planların hazırlanması, təşkilatlanmanın kəmiyyət və keyfiyyət göstəricilərinin daim yaxşılaşdırılması və s. Həmçinin diasporumuzun təşkilatlanaraq lobbiyə çevrilməsi qarşıya qoyulan əsas siyasi məqsədlərdəndir.

Azərbaycan lobbiçiliyinin təbii şəkildə yaranması və onun dialektik inkişafına münbit şərait yaradılması üçün onun qarşısında olan bir sıra əngəllər aradan qaldırılmalıdır. Azərbaycan lobbiçiliyin yaranması istiqamətində bir sıra tədbirlər keçirilməlidir. Bunun üçün ilk növbədə milli məfkurəmiz, milli-mənəvi dəyərlərimiz, ideologiyamız əsas alınaraq bir çox demoktatik və iqtisadi islahatlar aparılmalıdır.

Keçid dövründə diaspor fəaliyyətinin önəmi daha da artıb. Bu gün bizə diaspor fəaliyyəti ilə məşğul olan təşkilatların vahid mərkəz ətrafında birləşməsi ən çox Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində həlli, beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, işğal altında olan torpaqlarımızla bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün lazımdır.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli "**Milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında Azərbaycan dövlətinin rolu**" adlanır. Milli-mənəvi dəyərlərimizin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli dövlətçiliyimiz istər tarixən, istərsə də keçid dövründə böyük çətinliklərlə irəliləmişdir. Onun daxilində, həm də xaricində həmişə ona mane olmaq istəyən qüvvələr olmuşdur. Bu gün şübhəsiz, bizim respubli-

kamızda birlik, addım atmaq, müxtəlif tərəflərə yönəlmiş qüvvələri, arzuları, birgə niyyətləri toplayıb bir istiqamətə yönəltmək çox vacibdir. Çünki bir tərəfdən qloballaşma dövrünün yaratdığı çətinliklər, digər tərəfdən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ən nəhayət, müstəqilliyi qorumaq şərəfi ictimai-siyasi mühitimizdə milli-mənəvi dəyərlər fenomenini diqqət mərkəzində saxlamağı tələb edir.

Sovet İttifaqının dağılması nəticəsində milli dövlətin bərpa edilməsi XX əsrin sonu - XXI əsrin əvvəlində Azərbaycan cəmiyyətinin inkişaf yolunu müəyyənləşdirən başlıca amilə çevrildi. Milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha çox dərəcədə milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Keçid dövründə bir ictimai-iqtisadi formasiyadan digərinə keçidlə bağlı Azərbaycanda yeni iqtisadi və siyasi-hüquqi münasibətlər sisteminin formalaşması hüquqi, dünyəvi dövlət quruculuğunu, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsini təmin edən yeni milli Konstitusiyanın qəbulunu da ciddi zərurətə çevirmişdi. Bu reallığı düzgün dəyərləndirən ümummilli lider Heydər Əliyev dövlətin təməlinin möhkəm hüquqi əsaslar üzərində qurulması üçün, ilk növbədə, müstəqil Azərbaycan Konstitusiyasının hazırlanaraq qəbul edilməsini vacib saydı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilən ilk milli Konstitusiyamız respublikanın müstəqilliyini təmin edən sənəd olmaqla, hüquqi, demokratik dövlətin qurulmasının, vətəndaş cəmiyyətinin formalaşmasının əsas təsisatını yaratmışdır.

Keçid dövründə insanlarda milli-mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsi asan məsələ deyildir. Prezident İlham Əliyevin bədii ədəbiyyatın klassik nümunələrinin latın qrafikası ilə kütləvi tirajla çap olunması haqqında sərəncamı bir daha sübut etdi ki, Heydər Əliyev siyasi kursu bütün aspektlərdə olduğu kimi, mədəni sərvətlərimizə, dilimizə, ədəbiyyatımıza münasibətdə də saxlanılır və uğurla davam etdirilir.

Keçid dövründə Avropa, Amerika, Rusiya, Şərq ölkələrində Azərbaycan xalqının zəngin mədəniyyəti və tarixi, ədəbiyyatı geniş təbliğ edilir. Azərbaycan dövlətinin səyi nəticəsində ötən il YUNESKO-nun xüsusi qərarına əsasən Novruz bayramı bəşəriyyətin qeyri-maddi sərvətlər siyahısına daxil edildi. Məhz qlobal miqyasda atılan bu ciddi addımdan sonra dünya tərəfindən milli sivilizasiyamızın bu ayrılmaz atributuna maraq artır.

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, Mehriban xanım Əliyeva ölkəmizin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyuk xidmətlər gös-

tərmişdir. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə "Azərbaycan – İrs" jurnalını təsis etmiş, Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbusunu irəli sürmüşdür.

Keçid dövründə milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı həyat tərzimizdə, əxlaqımızda, mənəviyyatımızda, ədəbiyyatımızda olduğu kimi, pedaqoji prosesdə də aparıcı ideyalardan biri olmalıdır. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlərimiz nəinki təkcə müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir.

**Nəticə hissəsin**də tədqiqata yekun vurulmuş və onun əsas nəticələri, müəllifin təklif və tövsiyələri ifadə olunur.

**Dissertasiyanın mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1.Fəlsəfə tarixində aksioloji nəzəriyyə və müasir dövr // Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər, № 3(15), 2008, s.12-16

2.Şəxsiyyətin azadlığı və məsuliyyətinin vəhdəti // AMEA-nın Naxçıvan Bölməsinin "Xəbərləri", 2009, №1, s.298-303

3.Heydər Əliyev və milli mənəvi dəyərlər problemi / Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri(2010-cu il mayın 5-də keçirilmiş Ümumrespublika elmi-nəzəri konfransının materialları). Bakı: "Elm və Təhsil", 2010, s.332-335

4.Dini inanclarımız –mənəvi dəyərlərimizin tərkib hissəsi kimi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2010, № 2(34), s.193-196.

5.Milli-mənəvi dəyərlərin şəxsiyyətin formalaşmasında rolu // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1(37), s.120-124.

6.Mənəvi dəyərlər anlayışının fəlsəfi mahiyyəti // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. İctimai elmlər seriyası, 2012, №1(47), s.104-109.

7.Qloballaşan dünyada milli-mənəvi dəyərlərimiz / "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda Beynəlxalq konfrans materialları - 21-22 dekabr 2012, ADMİU. Bakı: Təknur, 2012, s.352-354.

8.Основные особенности национально-духовных ценностей Азербайджана // Гілея: науковий вісник: збірник наукових праць / гол.ред. В.М.Вашкевич.-К.:"Видавництво" "Гілея",2015.-Вип.94(3), с. 317-320

**Ахмедов Аббас Гейдар оглу**

# ТРАНСФОРМАЦИЯ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ В ПЕРЕХОДНЫЙ ПЕРИОД

## РЕЗЮМЕ

Диссертационная работа состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, целях, задачах, источниках, методах исследования, об апробации и структуре диссертации.

Глава I диссертационной работы **«Философская сущность национально-духовных ценностей»** состоит из трех параграфов**.** В ней предпринята попытка исследования понятия «национально-духовные ценности» в философском аспекте, приводится краткий обзор его эволюции в истории философской мысли. При этом на первый план выдвигается антология понятия «ценность», а также исследуются теоретические основы и особенности национально-духовных ценностей на фоне аксиологических проблем, являющихся составной частью философской антропологии.

Во II главе диссертации под названием **«Основные направления национально-духовных ценностей в период независимости»,** состоящей из двух параграфов, проанализированы основные направления трансформации национально-духовных ценностей в период независимости, рассмотрены отношения национально-духовные ценности и интеллигенция, исследованы роль и место идеологии азербайджанства в системе национально-духовных ценностей, которой в современном обществе придается большое значение. В данной главе также исследуется тесная взаимосвязь национально-духовных ценностей с азербайджанской государственностью.

Глава III диссертации под названием **«Глобализация и перспективы национально-духовных ценностей»** состоит из трех параграфов. Эта глава посвящена проблеме взаимодействия современного процесса глобализации и перспективам национально-духовных ценностей. В ней выявлено позитивное и негативное влияние глобализации, роль азербайджанской диаспоры в их сохранении и развитии; раскрыта сущность параллельного процесса укрепления этих связей; обнаружены недостатки в данной сфере и указаны пути их устранения.

В заключительной части диссертации обобщаются основные научные выводы исследования.

**Abbas Heydar oghlu Ahmedov**

# TRANSFORMATION OF NATIONAL-CULTURAL WEALTH IN THE TRANSITION PERIOD

## SUMMARY

The dissertational work consists of the “Introduction”, three chapters, “Conclusion” and the list of the references.

In “Introduction” are proved the theme urgency, scientific novelty, the theoretical and practical importance of work; data on object, the purposes, problems, sources and research methods, on approbation and dissertation’s structure.

Chapter I of the dissertational work is called **«Philosophical essence of national-cultural wealth»**and consists of three paragraphs**.** There is undertaken an attempt of research of “national-cultural wealth”concept from the point of view of philosophy, alsois resulted the short review of its statement and evolution in history of philosophical thought. Thus on the foreground the anthology of concept “value” is put forward, and also are investigated a theoretical bases and national-cultural wealth features at the axiology problems plane which are a component of philosophical anthropology.

The chapter II of the dissertation under the name **«The basic directions of national-cultural wealth in independence»** consists of two paragraphs. There are analyzed the basic directions of transformation national-cultural wealth in independence, opened relations between national-cultural wealth and the intelligence, investigates a role and a place of Azerbaijani ideologies in national-cultural wealth system, which the great value is given in a modern society. In thischapteralso are considered interrelations and unity national-cultural wealth with *statehood* traditions of *Azerbaijan*.

The chapter IIIof the dissertation under the name **«Globalization and prospects of national-cultural wealth»** consists of three paragraphs. This chapter is devoted to a problem of interaction of modern process of globalization and prospects of national-cultural wealth. There are revealed positive and negative influence of the globalization on national-cultural wealth as one of the characteristic parties of our time, and a role of the Azerbaijani diaspora in their preservation and development. Thereis opened the essence of parallel process of strengthening of these communications, are fined specified lacks of the given sphere out and ways of their elimination.

In “Conclusion” of the dissertation are generalized the basic scientific results and the judgments which have been put forward during research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**АББАС ГЕЙДАР оглу АХМЕДОВ**

# ТРАНСФОРМАЦИЯ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ В ПЕРЕХОДНЫЙ ПЕРИОД

**Специальность 7202.01 – Социальная философия**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по философии**

**Баку-2016**